

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 153 (21.814)

15 avqust 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Etibarlı su təchizatı Naxçıvanın gələcək inkişaf perspektivlərini təmin edəcək əsas amillərdəndir

*Su həyat mənbəyidir və bu sadə həqiqəti kiməsə sübut etməyə lüzum yoxdur. XXI əsrdə isə su təhlükəsizliyi hər bir ölkə üçün enerji və ərzaq təhlükəsizliyi kimi strateji əhəmiyyətli məsələlər sırasına daxil olub. Müasir dövrdə su mənbələrinin çatışmazlığı dünyanı təhdid edən qlobal problemlərdəndir və əhalinin etibarlı su təchizatı dövlətlərarası münasibətlərə təsir göstərə bilən amillərdən birinə çevrilməkdədir.*





Ölkəmizin su təhlükəsizliyinə də təhdidlər mövcuddur. Bu təhdidləri uzaqgörənliklə qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarının birində deyib: ***"Bu gün dünyada daha çox neft-qaz resursları uğrunda mübarizə aparılır və xoşbəxtlikdən Azərbaycan bu resurslardan, xalqın rifahı, ölkənin inkişafı naminə səmərəli şəkildə istifadə edir. Amma vaxt gələcək su resursları uğrunda mübarizə daha da kəskinləşəcəkdir. Biz artıq bu mübarizənin təzahürlərini görməkdəyik. Belə olan halda su təhlükəsizliyi Azərbaycanın tam şəkildə təmin edilməlidir".*** Bununla bərabər, su təhlükəsizliyinin təmin edilməsi üçün ölkə başçısı ***"Su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək, yeni layihələri icra etmək, yeni kanallar inşa etmək və su anbarları yaratmaq Azərbaycan üçün strateji əhəmiyyətli bir məsələdir"***, – deyib.

Digər tərəfdən nəzərə alaq ki, ölkəmizin coğrafi mövqeyi iqlim dəyişmələrinin təsirlərinə həssasdır. Beynəlxalq elmi mərkəzlərin hesablamalarına görə, Azərbaycan Respublikasının 2025-ci ildə bir nəfərə düşən su ehtiyatı ən az olacaq 13 ölkədən biri kimi proqnozlaşdırılır. Eyni zamanda beynəlxalq iqlim dəyişmələri ilə bağlı hesabatlarda iqlim dəyişməsindən ən çox zərər çəkəcək 39 ölkənin sırasında Azərbaycanın da adı çəkilir.

Ancaq onu da vurğulamaq lazımdır ki, ötən dövrdə ölkəmizin su təsərrüfatı sahəsində çox böyük işlər görülüb. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Azərbaycan 1996-cı ildə yaradılmış Dünya Su Şurasında 2013-cü ildən təmsil olunur və 2015-ci ildən həmin qurumun idarə heyətinə üzv seçilib. İstehlakçıların dayanıqlı içməli su ilə təmin edilməsi, su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, yeraltı və yerüstü su ehtiyatlarının dəqiq qiymətləndirilməsi, daha mükəmməl sugötürücü konstruksiyaların tətbiqi, suyun keyfiyyət standartlarının təkmilləşdirilməsi, istifadə olunmuş suların dərin texnologiyalar əsasında təmizlənməsi və digər sahələrdə təcrübə mübadilələrinin aparılması baxımından üzvlüyün əhəmiyyəti böyükdür. Bununla yanaşı, ölkəmizin su siyasəti qəbul edilmiş bir sıra dövlət proqramları və milli layihələr vasitəsilə icra olunur. Dünya Bankının dəstəyi ilə hazırlanmış Ətraf Mühitin Mühafizəsi üzrə Milli Fəaliyyət Planı 1996-cı ildən Azərbaycan Hökuməti tərəfindən həyata keçirilir. Bu strateji sahəyə göstərilən böyük diqqətin nəticəsidir ki, "Azərbaycan – 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında da ölkə əhalisinin təkmilləşdirilmiş su xidmətlərinə çıxışının yaxşılaşdırılması, təbii sərvətlərdən səmərəli istifadə edilməsi, ətraf mühitin qorunması, o cümlədən torpaq ehtiyatlarının səmərəli idarə olunması məqsədilə səhralaşma proseslərinin qarşısının alınması və sair məsələlər öz əksini tapıb. Burada da əsas məqsəd əhəmiyyətli sosial-iqtisadi inkişafa davamlı şəkildə nail olmaq üçün Azərbaycanda mövcud su ehtiyatlarının səmərəli, bərabər və optimal istifadəsinə yönəlmiş milli cəhdlərin möhkəmləndirilməsi və təbliğ edilməsidir.

Qeyd edək ki, ölkəmizdə meliorasiya və su təsərrüfatı sahəsində böyük uğurlara ilk dəfə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə imza atılıb. Həmin dövrdə Azərbaycanda böyük su anbarları, hidroqovşaqlar, nasos stansiyaları tikilib istifadəyə verilib, suvarılan torpaqların sahəsi xeyli artırılıb. Ötən əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikasında da yeni meliorasiya və irriqasiya sistemləri yaradılıb, Araz və Arpaçay kimi böyük su anbarları tikilib. 1993-cü ildə ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə meliorasiya və su təsərrüfatı sistemində daha geniş islahatlar həyata keçirilib, bu sahədə zəngin qanunvericilik bazası yaradılıb. Görülən işlər Naxçıvan Muxtar Respublikasında da özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Belə ki, son illərdə muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarma şəbəkələrinin genişləndirilməsi, su sistemlərində təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işləri, həmçinin içməli su təminatının yaxşılaşdırılması sahəsində kompleks tədbirlər görülüb. Vurğulayaq ki, sərt kontinental iqlimə malik olması regionda suvarma suyuna olan tələbatın ödənilməsində məqsədyönlü tədbirlərin həyata keçirilməsini zəruri edir. Bu amil nəzərə alınaraq su itkisinin qarşısını almaq, suvarmanı yaxşılaşdırmaq, torpaq sahələrini yeni əkin dövriyyəsinə daxil etmək məqsədilə yeni qapalı suvarma şəbəkələri tikilir, drenaj xətləri çəkilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin məlumatlarına görə, ötən dövrdə Heydər Əliyev Su Anbarından başlayan Vayxır sol sahil kanalı üzərində Babək rayonunun Nehrəm kəndində 1170, Culfa rayonunun Bənəniyar kəndində 1050 hektar olmaqla, ümumilikdə, 2220 hektar sahəni əhatə edən 241,5 kilometrlik qapalı suvarma şəbəkəsi tikilib, 77,5 kilometr məsafədə yeni drenaj xətti çəkilib, 6,5 kilometrlik kollektor bərpa olunub. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində isə 400 hektar sahəni əhatə edən qapalı suvarma şəbəkəsi bərpa olunub, Böyükdüz və Xok kəndlərini əhatə edən 117 hektar ərazidə yeni qapalı suvarma şəbəkəsi tikilib, nəticədə, su itkisinin qarşısı alınıb, suvarma suyundan səmərəli istifadə etmək üçün şərait yaradılıb. Hazırda bu işlərin davamı olaraq Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilir. Həyata keçirilən meliorasiya və su təsərrüfatı tədbirləri yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına da səbəb olub. Belə ki, Uzunoba Su Anbarında yenidənqurma işləri aparılıb, anbardan Kəngərli rayonuna 32,4 kilometr uzunluğunda boru xətti çəkilib, yeni nasos stansiyası tikilib, nəticədə, 5800 hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib. Böyükdüz və Xok kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq, su itkilərini aradan qaldırmaq üçün Araz çayındakı nasos stansiyasından 16,6 kilometr uzunluğunda yeni təzyiqli boru xətti çəkilib. Sədərək rayonunda əkinəyararlı torpaqların dayanıqlı suvarma suyu ilə təmin olunması üçün tikilən yeni nasos stansiyası hesabına uzun müddət əkilməyən 1500 hektar torpaq sahəsi də yenidən əkin dövriyyəsinə qatılıb.

Muxtar respublikamızın su təsərrüfatında əhalinin içməli suya olan tələbatının ödənilməsi də mühüm yer tutur və bu sahədə kompleks tədbirlər həyata keçirilib. Naxçıvan şəhərində "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində həyata keçirilən tədbirlər, bu mənada, mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Şəhər Su Anbarı və Su Təmizləyici Qurğular Kompleksi, eləcə də Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkəsi, Şahbuz və Culfa şəhərlərində içməli su və kanalizasiya sistemləri istifadəyə verilib. Hazırda layihə üzrə Ordubad və Şərur rayonlarında içməli su təchizatının və kanalizasiya sistemlərinin yenidən qurulması işləri davam edir.

*Göründüyü kimi, muxtar respublikamızın su təsərrüfatında indiyədək görülmüş işlər istər kənd təsərrüfatının inkişafında, istərsə də əhalinin içməli suya olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynayır. Həyata keçirilən tədbirlər, eyni zamanda regionun gələcək inkişaf perspektivləri nəzərə alınmaqla, uzunmüddətli strateji hədəflərini müəyyənləşdirir. Çünki su ehtiyatı olmadan gələcək üçün ərzaq və enerji təhlükəsizliyindən, deməli həm də iqtisadi inkişafdan söhbət gedə bilməz.*

✍ Səbuhi HƏSƏNOV

*Naxçıvan Şəhər Vergilər İdarəsində yeni fəaliyyətə başlayan sabit vergi ödəyicilərinə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz"lərin təqdim edilməsi ilə bağlı tədbir keçirilib.*

## Sabit vergi ödəyiciləri ilə görüş keçirilib



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası vergilər nazirinin müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov açaraq qeyd edib ki, 2017-ci il yanvar ayının 1-dən qüvvəyə minən "Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanun milli vergi qanunvericiliyində bir sıra mühüm yeniliklərin tətbiq olunmasına imkan yaradıb. Onlardan biri də fərdi əməklə məşğul olan şəxslərlə bağlıdır. Belə şəxslər vergi öhdəliklərini aylıq sabit vergi şəklində ödəməlidirlər. Sabit vergi fərdi fəaliyyət göstərən fiziki şəxsin gəlirindən və dövriyyəsindən asılı olmayaraq, ödədiyi dəyişilməz vergi məbləğidir. Belə şəxslər kiçik həcmdə gəlirlərə malik, muzdlu işçi cəlb etmədən müəyyən fəaliyyət növləri ilə məşğul olan vətəndaşlardır. Bundan başqa, dayə, fərdi sürücü, ev təsərrüfatında təmizlikçi, bağban, aşpaz, gözətçi və nəqqaşlıqla məşğul olanlar da sabit vergi ödəyiciləridir.

Vurğulanıb ki, sabit vergi ödəyiciləri vergi öhdəliklərini sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz almaqla yerinə yetirməlidirlər. Bu şəxslərin vergi orqanına hər hansı bəyannamə təqdim etməsi artıq nəzərdə tutulmur. Sadələşdirilmiş verginin bu qəbildən olan ödəyiciləri üçün sabit vergi mexanizminin tətbiqi fərdi qaydada fəaliyyət göstərən aşağı gəlirli fiziki şəxslərin vergi və inzibati yükünün azaldılmasına, eyni zamanda məşğulluq sahəsində uçot sisteminin dürüstlüyünün təmin olunmasına xidmət edir.

Sonra Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin əməkdaşı Elçin Babayevin, nazirliyin Qanunsuz sahibkarlığın aşkar edilməsi şöbəsinin rəisi Rəşad Əliyevin, Naxçıvan Şəhər Vergilər İdarəsinin rəisi Rəşad Əliyevin çıxışları olub. Çıxışlarda məbləğin ödənilməsi haqqında qəbz almadan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə vergi ödəyicisinə tətbiq edilən maliyyə sanksiyalarından söhbət açılıb. Bundan başqa, çıxış edənlər iştirakçılara aylıq sabit verginin məbləği, fəaliyyət göstərilən ərazi üzrə tətbiq olunan əmsallar, sabit vergi ödəyicilərinin qeydiyyata alınması prosedurları, sabit vergi üzrə qəbz almadan fəaliyyət göstərildikdə və nağd pul hesablaşmalarının aparılması qaydaları pozulduqda tətbiq olunan maliyyə sanksiyasının məbləği haqqında ətraflı məlumat veriblər.

Bildirilib ki, sabit verginin ödəyicisi olan fiziki şəxs vergi orqanında uçota alınmayıbsa, qeydiyyatda olduğu ərazinin vergi orqanına müraciət etməli və VÖEN almalıdır. Bundan başqa, fiziki şəxs fəaliyyətə başlayanadək vergi orqanından sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzi əldə etməlidir. Bu zaman verginin ödənilməsini təsdiq edən ödəniş sənədi müraciətə əlavə edilməlidir. Qəbz, yazılı müraciət olunduqda iki iş günündən gec olmayaraq, elektron qaydada müraciət zamanı isə real vaxt rejimində verilir.

Sonda vergi ödəyicilərinin sualları cavablandırılıb, vergi ödəyicilərinə sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzlər və " Sabit vergi" adlı məlumat vərəqələri təqdim edilib.

✍ Səbuhi HÜSEYNOV

## Nəqliyyat xidmətinin keyfiyyəti artırılır



Muxtar respublikada yol-nəqliyyat infrastrukturu müasir standartlar səviyyəsinə çatdırılmış, beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Bu ilin iyul ayında da avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində saxlanılmışdır. Ötən ay Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə Naxçıvandan Bakıya 2763, Bakıdan Naxçıvana isə 3747 sərnişin daşınmışdır.

Nazirliyin "Reyd komissiyası" müxtəlif günlərdə reydlər keçirmiş, sərnişindaşıma ilə məşğul olan avtonəqliyyat vasitələrinin təmizliyinə, sürücülərin geyim formasına, şəhərdaxili və rayonlararası marşrutlarda hərəkət qrafikinə nəzarəti artırmışdır. Bu dövrdə Naxçıvan Avtobus Parkında sərnişindaşımanı yerinə yetirən sahibkarların və sürücülərin iştirakı ilə seminar-müşavirə də keçirilmişdir.

İyul ayında sürücülərin muzeylərlə tanışlığına diqqət daha da artırılmış, muzeylərdə taksi sürücülərinin seminar məlumatlandırılması işinə avtobus sürücüləri də cəlb olunmuşdur. Hazırda hər həftənin çərşənbə günü taksi və avtobus sürücüləri muzeylərdə ekskursiyalarda olur.

*Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti*

*İnkişaf edən bölgələrimiz*

# Sinəsindən Arpaçayı, ətəyindən Araz keçən Şərur inkişaf, tərəqqi yolundadır

***Naxçıvan şəhərindən üzü Şərura uzanan magistral yolun hər iki tərəfi ilin bol məhsulundan xəbər verir. Hiss etmək çətin deyil ki, ucu-bucağı görünməyən əkin sahələri, meyvə bağları torpaq mülkiyyətçilərinin qayğısını bol-bol görüblər. Torpaq sədaqətli sərvətdir, insanların çəkdiyi zəhmətin əvəzini birə-beş qaytarıb. İlin bu qızmar günlərində Şərur kəndlisinin üzü gülür, çəkdiyi zəhmətin bəhrəsini topladıqca torpağın səxavətinə bel bağladığı üçün sevinir ki, belə bir yurd yerində yaşayır. İndi rayonun sakinləri öz doğma obaları ilə haqlı olaraq fəxr edirlər. Hara baxırsan yeniliklərlə rastlaşırsan. Bir-birinin ardınca istifadəyə verilən yeni inzibati və sosial obyektlər, səhiyyə, mədəniyyət, təhsil müəssisələri, yollar, körpülər hər an diqqəti çəkir, sənaye və kənd təsərrüfatı məhsulları istehsalında irəliləyiş getdikcə artır. Əhali, idarə və təşkilatlar fasiləsiz təbii qaz və elektrik enerjisindən, müasir informasiya və rabitə xidmətlərindən istifadə edirlər. Belə münbit şəraitdə hər kəs öz işində həvəslə çalışır, rayon, muxtar respublika, nəticə etibarilə, ölkə iqtisadiyyatının gücləndirilməsinə töhfəsini verir.***



Fikirlərimizə aydınlıq gətirmək üçün təkcə bu ilin birinci yarısındakı statistikaya qısa nəzər yetirək. Ötən ilin ilk altı ayı ilə müqayisədə sənaye məhsullarının həcmi 1,1, əsas kapitala yönəldilən investisiyalar 1,6, kənd təsərrüfatının ümumi məhsulu 3,1, rabitə və informasiya xidmətlərinin həcmi 2,1, pərakəndə əmtəə dövriyyəsi 1,3, əhaliyə göstərilən pullu xidmətlər 1,7 faiz artıb.

Bu müddətdə rayon üzrə 47 milyon 887,9 min manat müxtəlif sənaye məhsulu istehsal olunub. İqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 37 milyon 334,7 min manat həcmində investisiya yönəldilib ki, bunun da 35 milyon 66 min manatı, yaxud 93,9 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Bəhs olunan dövrdə 23 müxtəlif təyinatlı obyekt inşa olunub, yaxud mövcud obyekt yenidən qurulub. Şərur şəhərində 1020, Çəmənli kəndində 380 şagird yerlik tam orta məktəb binaları, Çəmənli və Arpaçay kəndlərində kənd və xidmət mərkəzləri tikilib istifadəyə verilib, Dərvişlər-Çəmənli avtomobil yolunun, rayon Mərkəzi Xəstəxanasının, Dəmirçi kəndində futbol stadionunun əsaslı təmiri başa çatdırılıb. Gəlirlərin artması əhalinin mənzil-məişət şəraitinin yaxşılaşmasına da müsbət təsir göstərib. Altı ayda rayonun müxtəlif yaşayış məntəqələrində 12 min 568 kvadratmetr fərdi yaşayış sahəsi inşa olunub.

Hazırda Ərəbyengicə, Qarahəsənli və Ələkli kəndlərində məktəblər, kənd və xidmət mərkəzləri, Ərəbyengicə və Ələkli kəndlərində həkim ambulatoriyaları, Ələklidə musiqi məktəbi üçün binalar inşa olunur. Adıçəkilən ünvanlarda yol, rabitə, qaz və elektrik təsərrüfatı da başdan-başa təzələnir. Rayondakı “N” hərbi hissə üçün infrastruktur obyektlərinin yenilənməsi, o cümlədən əsgər yeməkxanasının tikintisi, qərargah binasının və əsgər yataqxanasının əsaslı təmiri, Yengicə kəndindəki XVIII əsrə aid hamamın bərpası, “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” çərçivəsində rayon mərkəzində, həmçinin ətraf kəndlərdə içməli su təchizatı və kanalizasiya infrastrukturunun yenidən qurulması davam etdirilir.

Yol mədəniyyət, yol yüksəliş, yol inkişaf, tərəqqi deməkdir. Bu məsələ də Şərurda diqqət mərkəzindədir. Ələkli kəndi yaxınlığında 60 ton istehsal gücü olan Asfalt Zavodun fəaliyyət göstərməsi rayonda yol təmir-tikinti işlərinin genişləndirilməsinə və sürətləndirilməsinə əlverişli imkan yaradıb. Zavodun xidmətindən həm yaşayış məntəqələrini bir-biri ilə birləşdirən avtomobil yolları, həm geniş quruculuq tədbirləri aparılan kəndlər yararlanır, yolların istismarı zamanı müxtəlif səbəblərdən yaranan nasazlıqlar aradan qaldırılır.

Şərur rayonunda iqtisadiyyatın yüksəldilməsi, aqrar sektorda məhsuldarlığın artırılması, sənaye istehsalının şaxələndirilməsi və gücləndirilməsi, bu hesaba əhalinin məşğulluğunun təmin olunması diqqət yetirilən başlıca məsələlərdəndir. “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq rayonda 279 yeni iş yeri açılıb ki, bunların da 273-ü daimidir. Rayon Məşğulluq Mərkəzində 284 nəfər işaxtaran vətəndaş qeydiyyata alınıb, onlardan 260 nəfəri müxtəlif sahələrdə daimi işlə təmin olunub. Təşkil olunan əmək yarmarkalarında 40 nəfər işaxtaran vətəndaş daimi, 20 nəfər isə müvəqqəti işlə təmin edilib.

Ölkə Prezidenti cənab İlham Əliyevin 2016-cı il 7 aprel tarixli Sərəncamı ilə əhalinin özünüməşğulluğunun təmin olunması üzrə proqramın icrası istiqamətində də işlər davam etdirilib, vətəndaşların ailə biznesi qurmaları üçün onlara hər cür şərait yaradılıb. Bu mütərəqqi iş metodu ilə məşğul olmaq istəyənlər, əsasən, kənd təsərrüfatı sahəsinə üstünlük verir və bu hesaba ailə təsərrüfatlarını formalaşdırırlar. İlin əvvəlindən proqram çərçivəsində 7 ailəyə pulsuz cins inək verilib. Malların normal bəslənməsi və artımı baytarların nəzarəti altında həyata keçirilir.

Rayonda iqtisadiyyatın əsasını aqrar sahə təşkil edir. Kənd təsərrüfatı ilə məşğul olanlara göstərilən hərtərəfli dövlət dəstəyinin nəticəsidir ki, bütün sahələrdə məhsuldarlıq intensiv amillər hesabına artırılıb, aqrar sahənin davamlı inkişafı təmin olunub. Bu sahədə aqrolizinq xidmətini də xüsusi qeyd etmək lazımdır. Təkcə bu il “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti Şərur bazasının xətti ilə sahibkarlara 527 min 629 manat dəyərində 36 ədəd müxtəlif kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlar satılıb. Baza şum, əkin, becərmə, yığım zamanı da əkinçilərə lazımi köməkliklər göstərir.

2017-ci ilin məhsulu üçün ötən ilin payızında və bu ilin yazında 17 min 115 hektar sahədə müxtəlif bitkilər, o cümlədən 3 min 598 hektar sahədə buğda, 546 hektarda arpa, 1237 hektarda qarğıdalı, 32 hektarda günəbaxan, 1814 hektarda tərəvəz, 475 hektarda bostan bitkiləri, 1064 hektar sahədə kartof əkilib. Becərmə tədbirləri aqrotexniki tələblərə uyğun aparıldığından sahələrdə bol məhsul yetişdirilib. Taxıl biçininə vaxtında, həm də tam hazırlıqla başlanılıb və bu mühüm kampaniya mütəşəkkilliklə yekunlaşıb. 4 min 144 hektar sahədən tədarük edilən məhsul 13 min 171 ton, orta məhsuldarlıq isə 31,8 sentner olub. Digər bitkilərin də yığımı davam edir.

Aparılan meliorativ tədbirlər nəticəsində Arazqırağı kəndlərdə şoranlaşmaya və çəmənləşməyə məruz qalmış 3 min 528 hektar torpaq sahəsinin 516 hektarı əkinəyararlı hala salınıb.

“Şərur Aqrotexservis” Açıq Səhmdar Cəmiyyətinin rəhbəri, Naxçıvan Muxtar Respublikasının Əməkdar kənd təsərrüfatı işçisi Aqil Məmmədov aqrar sahədə çalışan sahibkarlara göstərilən dövlət qayğısının gündən-günə artmasını xüsusi vurğulayır:

– Müstəqilliyimizin bərpasının ilk illəri ilə indiki vəziyyət bir-birindən tamamilə fərqlidir. O vaxtlar bir də görürdün ki, suvarmanın qızğın çağında elektrik enerjisi kəsildi, nasos stansiyası dayandı, yaxud səpin apardığın vaxt yanacaq qurtardı. Texnikalar da köhnəldiyindən, istismar müddətləri başa çatdığından tələbatı ödəmirdi. Ümumiyyətlə, problemlər çox idi. Ona görə də əkinbiçinə maraq azalmışdı. İndi sadaladığım sahələrin heç birində problem yoxdur, dövlət yardımı yetərincədir. İstehsalçılara maliyyə yardımları edilir, pulsuz gübrə paylanılır. Bu isə öz səmərəsini göstərir, məhsul istehsalı ildən-ilə artır.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu ilin yazında da yeni meyvə bağları salınıb, əvvəlcədən əkilmiş 20 hektar bağda bərpa işləri görülüb, becərmə tədbirləri aparılıb.

Şərur rayonu qədimdən dadlı-tamlı üzüm sortları ilə də tanınıb. Ötən əsrin yetmiş-səksəninci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində üzümçülüyün yüksək templə inkişafına nail olunmuş, yeni emal müəssisələri yaradılmışdı. Bunların nəticəsi idi ki, artıq səksəninci illərin əvvəllərində Şərur rayonunda üzüm istehsalı 110 min tona çatmışdı, 6 üzümün ilkin emalı zavodu fəaliyyət göstərirdi. Sevindirici haldır ki, “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”nın icrası istiqamətində həyata keçirilən tədbirlər nəticəsini verməkdədir. Aparılan maarifləndirici tədbirlər, dövlət tərəfindən göstərilən köməkliklər artıq bu sahəyə marağı xeyli artırıb, üzüm bağlarının sahəsi 100 hektarı ötüb. Təkcə bu ilin yazında 60 min ədəd üzüm tingi torpağa basdırılıb, yeni mövsümdə əkmək üçün minlərlə üzüm tingi yetişdirilir.

Sağlam ekoloji mühit, sağlam hava, təmiz su insan həyatı üçün ən vacib şərtlərdəndir. Muxtar respublikamızda bu vacib məsələlərin həlli istiqamətində həyata keçirilən tədbirlər sırasında hər il yeni yaşıllıqların salınması, onların qorunması və artırılması mühüm yer tutur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin regionumuzda yaşıllaşdırma, təmizlik və abadlıq aylıqlarının keçirilməsi haqqında 2001-ci il 1 mart tarixli Sərəncamı ilə hər il keçirilən yaz və payız iməcilikləri insanların təbiətə bağlılıqlarını daha da gücləndirir, onları bu qədim diyarın ekologiyasını zənginləşdirməyə və qorumağa səfərbər edir. Şərur şəhərində, rayonun kəndlərində geniş vüsət alan yaşıllaşdırma kampaniyası 2017-ci ilin birinci yarısında da davam etdirilib, minlərlə bəzək və meşə ağacları, gül kolları əkilib. Yaşıllıqlara qulluq ardıcıl davam etdirilir.

Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramında bölgələrin daha genişmiqyaslı tərəqqisi, əhalinin rifahının yüksəldilməsi kimi həyata keçiriləcək mühüm tədbirlər nəzərdə tutulub. Adıçəkilən dövlət sənədindən irəli gələn vəzifələr Şərur rayonunda da uğurla icra olunur.

***Sinəsindən Arpaçayı, ətəyindən Araz keçən bu qədim diyarda yeniləşmə və yüksəliş davamlıdır, ürəkaçandır. Şərurda kiminlə görüşüb söhbətləşirsənsə, xoş söz eşidirsən, hər yerdə sabaha daha dərin inam və ümidin şahidi olursan. Görülən işlərin miqyası və dinamizmi, adamların yüksək əhval-ruhiyyəsi, ümumi yüksəliş abhavası diktə edir ki, ilin qarşıdakı aylarında da qazanılacaq uğurların həcmi daha da artacaq. Çünki son illərin təcrübəsi göstərir ki, insana qayğının davamlı xarakter aldığı yerdə böyük irəliləyişlərə nail olmaq heç də çətin deyil. Şərurlular da bu həqiqətin işığında qurub-yaradır, daha xoş sabahlara doğru inamla addımlayırlar.***

**Elman MƏMMƏDOV**
***“Şərurun səsi” qəzetinin redaktoru***

## Kənd təsərrüfatı məhsullarının satış yarmarkasında bolluqdur

*Muxtar respublikada iqtisadiyyatın bazar münasibətləri istiqamətində inkişafı insanların torpağa və zəhmətə olan baxışını kökündən dəyişib, onların sahibkarlığa maraqlarını daha da gücləndirib. Bu istiqamətdə görülən işlər, yaradılan əlverişli şərait fəaliyyətlərin genişləndirilməsinə, yeni iş yerlərinin açılmasına, məhsuldarlığın və yerli istehsal sahələrinin artırılmasına böyük stimul verib.*



Bu gün iqtisadiyyatımızın formalaşmasında özəl sektor, xüsusilə də kiçik və orta sahibkarlıq mühüm rol oynayır. Hazırda kiçik istehsal və emal müəssisələri yaradılır, sahibkarlıq fəaliyyəti inkişaf etdirilir. Bu isə əhalinin məşğulluğunun təmin olunması, insanların sosial rifahının yaxşılaşdırılması ilə yanaşı, həm də məhsul bolluğu yaradır. Belə tədbirlər əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında, süni qiymət artımının qarşısının alınmasında və istehlakçıların seçim imkanlarının artırılmasında mühüm rol oynayır.

Muxtar respublikamızda kənd təsərrüfatı məhsullarının satış yarmarkaları da bu məqsədlə təşkil edilir. Yarmarkada satıcı və alıcıların rahatlığının təmin olunması üçün əlverişli ticarət mühiti yaradılıb. Fermerlər, sahibkarlar və kənd təsərrüfatı məhsulları istehsalçıları məhsullarını satmaq üçün yarmarkaya gətirir və münasib qiymətlərlə alıcılara təklif edirlər. Bu isə onların məhsullarını asanlıqla satmasına imkan yaratmaqla yanaşı, istehlakçıların tələbatının ödənilməsini təmin edir.

Avqustun 12-də də Naxçıvan şəhərindəki Mərkəzi bazarda növbəti satış yarmarkası təşkil edilmişdi. 300-dən çox məhsul istehsalçısı satışa 65 tona yaxın mövsümi kənd təsərrüfatı məhsulu çıxarmışdı. Burada alıcılara müxtəlif növ ərzaq, meyvə-tərəvəz, ət və süd məhsulları, müxtəlif çeşiddə çərəzlər təklif edilirdi. Həmin gün ənənəvi olaraq muxtar respublikada fəaliyyət göstərən 26 istehsal müəssisəsi 87 adda, 175 çeşiddə məhsul satışa çıxarmışdı. Qiymətlərin bazar qiymətindən 10-25 faiz aşağı olması alıcıların da ürəyincə idi. Onlar yarmarkanın təşkilindən və qiymətlərin sərfəli olmasından razılıq edirdilər.

Şəhər sakini Sona Məhərrəmova yarmarkadan razı qaldığını və öz torpağımızda yetişən meyvə-tərəvəzin başqa yerin məhsulları ilə əvəz olunmadığını dedi. Müsahibimiz qiymətlərin də münasib olduğunu söyləməklə yanaşı, bazarda məhsul bolluğu olduğunu söylədi. O, kənd təsərrüfatı yarmarkalarını təşkil edənlərə öz minnətdarlığını bildirdi.

Digər şəhər sakini Abasət Əlverdiyev ilə də həmsöhbət olduq. O dedi ki, satış yarmarkası qiymətlərin aşağı salınmasına gətirib çıxarıb. Daha doğrusu, qiymətlər bazarlarda yaradılan bolluğa uyğun olaraq formalaşıb. Müsahibimiz belə yarmarkaların müntəzəm olaraq təşkil edilməsindən razılığını ifadə etdi.

Fürsətdən istifadə edib məhsul istehsalçıları ilə də həmsöhbət olduq. Yarmarkaya Ordubad rayonunun Dəstə kəndindən tərəvəz məhsulları gətirmiş Süleyman Əliyev burada kənd adamları üçün əlverişli şəraitin yaradıldığını bildirdi. Dedi ki, meyvə-tərəvəz məhsullarına yarmarkada maraq böyükdür və çəkdiyimiz zəhmət hədər getmir.

Təbriz Məmmədov Şərur rayonunun Ələkli kəndindəndir. Bu il təsərrüfatında meyvə becərilməsinə daha çox üstünlük verib. Sahəsində bol məhsul yetişdirə bilib. Yarmarkaya gətirdiyi məhsulun çoxunu artıq satıb və yaxşı qazanc əldə edib. O, belə satış yarmarkalarının təşkilini torpaq mülkiyyətçilərinə böyük qayğı kimi dəyərləndirir.

Qeyd edək ki, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının keçirilməsində məqsəd istehsalçıların məhsullarını bazara çıxarmasına kömək etmək, süni qiymət artımının qarşısını almaqdır. Bundan isə həm satıcı qazanır, həm də alıcı.

**Gülcamal TAHİROVA**

*Rəsədxanalar haqqında çox yazılıb. Rəsədxanalar qədim mədəniyyət abidələri, müasir elm mərkəzləri kimi hər zaman diqqət mərkəzində olub. Hələ miladdan əvvəl – elmin inkişaf etmədiyi zamanlarda insanlar təbiətlə daha çox təmas qurmağa, onun sirləri ilə tanış olmağa və xüsusilə səma cisimlərini öyrənməyə can atıblar. Ən azından onlar kainatın dərinliklərinə baş vurmaqla çıxış yolunu təbiətlə mübarizədə yox, onun sirlərini öyrənməkdə görüblər. Əlbəttə, belə bir istək astronomiya və təbiəti öyrənən digər elm sahələrinin daha tez təşəkkül tapmasına təkan verib. Beləliklə, bu zərurətdən kosmosu – ulduzları, Günəşi və digər səma cisimlərini müşahidə etmək üçün xüsusi elmi qurumlar – rəsədxanalar yaradıldı və onlar alimlərin, münəccimlərin ən çox müraciət etdiyi ünvanlara çevrildi. Qeyri-rəsmi mənbələrə görə, dünyada rəsədxanaların yaradılması miladdan çox-çox əvvəllərə gedib çıxır.*




**Elm mərkəzlərimiz**

## Astronomik tədqiqatların aparıldığı mərkəz –

# Batabat Astrofizika Rəsədxanası

İlk rəsədxanalar sadə daş tikililərdən ibarət olub. Onlarda müşahidə yalnız açıq havada gözlə baxmaqla aparılırdı. Müəyyən dövrlərdən sonra səmanı müşahidə etməyə meyil edənlər münəccimlik edər və bunun üçün evlərin damlarında qüllələr ucaldar, əlavə otaqlar tikərdilər. Lakin zaman dəyişdikcə bu primitiv üsul da dəyişdi. Təxminən, XVII əsrdə teleskopun ixtirası ilə bu sahə xeyli təkmilləşdi və bu gün adları, kəşfləri ilə bizə məlum olan astronomiya ilə məşğul olan alimlər formalaşmağa başladılar. Beləcə, müasir rəsədxanalar yaradıldı, elmi-texniki tərəqqi paralelliyində təkmilləşdirildi, yaradıldığı ilk vaxtlardan bir neçə minillik keçsə də, onlar sıradan çıxmadı, qədim elm ocaqlarından müasir tədqiqat mərkəzlərinə çevrildi.



Elmin inkişafında xüsusi rol oynayan, elmi-texniki imkanları və coğrafi mövqeyinin unikallığı ilə tanınan Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Batabat Astrofizika Rəsədxanası bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Rəsədxana bölmənin tərkibində fəaliyyət göstərən 6 elmi-tədqiqat müəssisəsindən biridir. Bu elmi-tədqiqat müəssisəsi Naxçıvan şəhərindəki inzibati binadan, Şahbuz rayonu ərazisində yerləşən Batabat və Ordubad rayonu ərazisindəki Ağdərə stansiyalarından ibarətdir.

Ötən günlərdə bu elmi-tədqiqat müəssisəsinin fəaliyyəti ilə yaxından tanış olmaq üçün rəsədxananın direktoru Qulu Həziyevlə görüşüb həmsöhbət olduq. Söhbət zamanı o bildirdi ki, rəsədxana təşkil olunmazdan əvvəl Naxçıvan ərazisində 2 astronomik rəsədxana olub. Bunlardan biri Şamaxı Astrofizika Rəsədxanasının Batabat Bölməsi, digəri isə Sankt-Peterburq şəhərində yerləşən Pulkovo Rəsədxanasının Ordubad rayonunun Ağdərə ərazisindəki astronomik stansiyası idi. Hər iki rəsədxana üçün Naxçıvan ərazisinin seçilməsi təsadüfi deyildi. Burada astronomik müşahidələr üçün ideal təbii-iqlim şəraitinin mövcudluğu və bölgənin Yer ekvatoruna yaxın olması unikal astronomik müşahidələrin aparılmasına imkan yaradır. Hər iki rəsədxanada 15 ildən artıq bir dövrdə aparılan müşahidələr və tədqiqat işləri bunu bir daha təsdiq edir. 1992-ci ildə Ağdərə stansiyası Şamaxı Astrofizika Rəsədxanasına birləşdirilib. Çox təəssüf ki, keçən əsrin 80-ci illərinin axırı və 90-cı illərinin əvvəllərində baş verən məlum hadisələrdən sonra faktiki olaraq hər iki rəsədxanada astronomik müşahidələr dayandırılıb. Ümummilli liderimizin AMEA Naxçıvan Bölməsinin yaradılması haqqında 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə hər iki rəsədxana təkrar həyata vəsiqə qazanıb, keçmiş kadrların yenidən elmi- tədqiqat işlərinə cəlb olunmasına başlanılıb. Bundan başqa, Şamaxı Astrofizika Rəsədxanasının Batabat Bölməsinin, həm də Ağdərə stansiyasının maddi-texniki bazasından və kadr potensialından istifadə olunub.

Bu elmi-tədqiqat müəssisəsinə göstərilən dövlət qayğısından danışan Qulu Həziyev qeyd etdi ki, rəsədxana üçün həm Naxçıvan şəhərində, həm də Batabat stansiyasında müasir tələblərə cavab verən inzibati binalar tikilərək istifadəyə verilib, elmi-texniki sahədə çalışan əməkdaşların hər biri müasir iş şəraiti olan ayrıca otaqlarla, internetə qoşulan fərdi kompüterlərlə təmin olunub. Rəsədxananın ən müasir cihaz və avadanlıqlarla təminatı intensiv surətdə davam etdirilir. Rəsədxanaya yeni əməkdaşlar, xüsusilə gənc kadrlar cəlb olunur, müasir müşahidə cihazları əldə edilir. Bu işlər tam başa çatdırıldıqdan sonra astronomiyanın digər sahələri – qalaktikalar, relikt cisimlərlə bağlı da tədqiqatlar aparılması nəzərdə tutulub. Bunun üçün əsas avadanlıqlar əldə olunub və qismən quraşdırılıb. Ancaq astronomiyada bütün bu nəzərdə tutulan işlərin effektiv nəticə verməsi üçün müəyyən zaman tələb olunur.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, ən böyük çətinliklərimizdən biri bu sahədə elmi kadrların azlığıdır. Bu da ondan irəli gəlir ki, sovetlər dövründə məktəblərdə astronomiya fənn kimi tədris olunsa da, həmin sahəyə maraq göstərən şagirdlərin digər pillələrdə təhsil alması mümkünsüz olub, ya da bu fənn görüntü üçün, epizodik tədris olunub. Ancaq son dövrlərdə elmə və təhsilə göstərilən dövlət qayğısından astronomiya elminə də pay düşüb, artıq bu elm sahəsi üzrə müdafiə şuraları fəaliyyətə başlayıb, astronomiya üzrə elmi dərəcələr təsis olunub. Vaxtilə bizim rəsədxananın ən böyük çətinliyi gənc kadrlardan qaynaqlanırdısa, indi yavaş-yavaş bu çətinliklər aradan qaldırılır.

Qulu Həziyev dedi ki, rəsədxanalar həm tədqiqat obyektinə, həm də iş rejiminə görə xüsusi zəhmət tələb edir. Məsələn, bəzən həftələrlə gecələr müşahidə proqramları yerinə yetirmək lazım gəlir. Müşahidə aparılan yer, yəni teleskopun olduğu məkan qızdırıla və soyudula bilməz. Bunun üçün də tədqiqatçı bütün hava şəraitlərinə hazırlıqlı və dözümlü olmalıdır. Rəsədxanada 21 əməkdaş çalışır. Onlardan 9 nəfəri bilavasitə elmi-tədqiqat sahəsində fəaliyyət göstərir. Elmi-tədqiqatla məşğul olanların dörd nəfəri gəncdir və son dörd ildə rəsədxananın fəaliyyətinə cəlb edilib. Onlar hazırda təhsillərini doktorantura səviyyəsində davam etdirirlər.

Rəsədxananın fəaliyyəti dövründə bir sıra nailiyyətlər qazanılıb, 2009-cu ildə muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində Naxçıvanda astronomiya sahəsində ilk beynəlxalq konfrans keçirilib, sonrakı müddətdə 4 əməkdaş tərəfindən dissertasiya müdafiə edilib. Beynəlxalq səviyyəli elmi jurnallarda əməkdaşların məqalələri dərc edilib. Rusiya, Çin və İngiltərənin elmi jurnallarında dərc olunan məqalələrə elmi çevrələrin marağı böyük olub. Bundan başqa, rəsədxananın əməkdaşları Türkiyədə, İranda, Braziliyada və Çilidə keçirilən elmi konfranslarda iştirak edərək müxtəlif mövzularda maraqlı məruzələr ediblər. Hazırda rəsədxanada yerlə toqquşma təhlükəsi böyük olan asteroidlərin və kometlərin tədqiqi həyata keçirilir, Şamaxı Astrofizika Rəsədxanası, Marağa Astrofizika İnstitutu, Rusiya Federasiyasının Şimali Qafqazda yerləşən Astrofizika Rəsədxanası, Moskva Dövlət Universitetinin Astrofizika Rəsədxanası ilə əməkdaşlıq əsasında bir sıra işlər görülür.

Elmi mərkəzin turistlər üçün də cəlbedici məkan olduğunu bildirən Qulu Həziyev qeyd etdi ki, rəsədxanadakı ümumi şəraitlə tanışlıq zamanı paytaxtdan, ayrı-ayrı bölgələrdən, eləcə də xarici ölkələrdən gələn turistlərin sayı ilbeil artır. İsti aylarda buralar daha çox qonaq-qaralı olur. Buradakı elmi mərkəzlə yaxından tanış olmaq, teleskoplarla səma cisimlərini müşahidə etmək üçün gələnlər çoxluq təşkil edir. Bundan başqa, rəsədxananın qonaqları arasında tələbə-gənclər, ziyalıların da sayı az deyil. Sözsüz ki, bütün bu görülən işlər muxtar respublikada elmin kütləvi təbliğində səmərəliliyin artırılmasına çox müsbət təsir göstərir. Qonaqlar teleskopla səmaya baxmağa və burada çalışan mütəxəssislərin, alimlərin rəsədxana haqqında fikirlərini dinləməyə can atırlar. Onlar aydın səma altında müasir teleskoplarla göy cisimlərini müşahidə etmək, yeni məlumatlar öyrənmək üçün növbələrini səbirsizliklə gözləyirlər.

Digər bir maraqlı məqam da odur ki, onların arasında azyaşlılar da kifayət qədərdir. Sözsüz, bu, böyüklərlə yanaşı, uşaqların da astronomiyaya sonsuz marağından xəbər verir. Burada çalışan alimlər isə yorulmadan hər kəsin suallarını cavablandırır, onları kainatın, kosmosun sirləri ilə yaxından tanış etməyə həvəslə səy göstərirlər. Çünki rəsədxanada kifayət qədər müasir elmi-texniki avadanlıqlar, cihazlar var. Ən əsası da burada quraşdırılan teleskoplar vasitəsilə səma cisimlərini seyr etmək, onları yaxından öyrənməkdir. Buradakı teleskop, əsasən, spektral müşahidələr üçün nəzərdə tutulub. Bu siyahını bir qədər uzatmaq olar, lakin əsas odur ki, rəsədxanada müxtəlif təyinatlar üzrə belə qurğular var və yenilərinin də gətirilməsi planlaşdırılır.

*Əsrarəngiz iqlimə və təbii sərvətlərə malik olan muxtar respublikamızın hər bir bölgəsi özünəməxsus turizm potensialına və son dərəcə zəngin tarixi abidələrə malikdir. Batabat Astrofizika Rəsədxanası bu baxımdan Naxçıvanın elmi-mədəni abidəsi olmaqla bərabər, həm də elmin inkişafına verdiyi töhfələrə görə xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda bura əlverişli turizm məkanı kimi də məşhurlaşıb.*

**Səbuhi HÜSEYNOV**

## Qısaməsafəli rentgen terapiya aparatı istifadəyə verilib



*Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzi regionun vacib səhiyyə obyektlərindən biridir. 2009-cu ildə yeni binaya köçürülən bu mərkəzdə onkoloji xəstəliklərin diaqnostikası və müalicəsi üçün müasir tələblərə cavab verən aparatlar quraşdırılıb.*

Hazırda mərkəzdə süd vəzi xərçənginin diaqnostikası üçün ultrasəslə müayinə, rəqəmsal mammoqrafiya aparatları, onkoloji xəstəliklərin diaqnostikasında əsas rol oynayan, onkomarkerlər təyin olunan histoloji və sitoloji laboratoriya fəaliyyət göstərir. Mərkəzdə, həmçinin sümük-oynaq, yumşaq toxumalar, ağciyər və digər orqanların xəstəliklərinin diaqnostikası üçün rəqəmsal rentgen aparatı quraşdırılıb, şüa müalicəsinin "ROKS-AM" aparatı vasitəsilə aparılması təmin olunub.

Onkoloji xəstəliklərin diaqnostika və müalicəsinin yüksək səviyyədə təşkil olunması üçün tədbirlər cari ildə də davam etdirilib, Ali Məclis Sədrinin tapşırığı ilə müasir standartlara tam cavab verən qısaməsafəli rentgen terapiya aparatı alınaraq Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinə gətirilib və aparılan quraşdırma işlərindən sonra dünən istifadəyə verilib.

Aparat 5 santimetr dərinliyə nüfuzetmə qabiliyyətinə malikdir və bu məsafədə olan bütün xərçəng hüceyrələrini məhv edir. Xüsusən bu avadanlıqdan qadınlarda süd vəzi xərçənginin, limfatik vəzlərin metastazı zamanı, dəri xərçənginin və bir sıra onkoloji xəstəliklərin müalicəsində tətbiq olunacaqdır. Avadanlıq İngiltərə istehsalıdır və dünyanın qabaqcıl səhiyyə müəssisələrində geniş istifadə edilir.

İxtisaslı kadrla təmin olunmuş qısaməsafəli rentgen terapiya kabinəsinin fəaliyyətə başlaması onkoloji xəstələrin müalicəsində mühüm yer tutacaqdır. Belə ki, rentgen terapiya almaq üçün xəstələr əvvəllər Bakı şəhəri və ya qonşu ölkələrə üz tuturdularsa, artıq bu avadanlıq vasitəsilə Onkoloji Mərkəzdə müalicə alacaqlar.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

*Uşaq və gənclərin hərtərəfli inkişaf etməsində, onların asudə vaxtlarının səmərəli təşkilində, istedadlı uşaqların aşkar edilməsində məktəbdənkənar müəssisələrin əvəzsiz rolu vardır.*

## Məktəblilərin sevimli ünvanı

Hazırda muxtar respublikamızda bu sahə ilə məşğul olan 44 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Onların sırasında Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi xüsusi rola malikdir. 4 mərtəbədən ibarət olan mərkəzin binasında 270 nəfərlik iclas zalı, 70 yerlik akt zalı, rəsm studiyası, rəqs və boks zalları, diyarşünaslıq muzeyi, kompüter və elektron lövhə otaqları, emalatxana, kitabxana, 22 dərnək otağı vardır. Mərkəzdə 3 adda şöbə, 61 dərnək fəaliyyət göstərir. Mərkəzin fəaliyyətinin əsas istiqaməti gənclərin hərtərəfli inkişaf etməsini təmin etmək, onlarda vətənpərvərlik hissini gücləndirmək, gənclərə doğma diyarımızın tarixi, milli adət-ənənələri, flora və faunası haqda biliklər verməkdən ibarətdir. İl ərzində burada müsabiqələr, bilik yarışları, əl işləri sərgiləri təşkil edilir. Mərkəz, həmçinin dərnəklərə uşaqların cəlbi üçün Naxçıvan şəhərinin ümumtəhsil məktəbləri ilə sıx əlaqələr qurur. Bəs yay tətili günlərində mərkəz tərəfindən hansı tədbirlər həyata keçirilir?

Bu suala cavab tapmaq üçün adıçəkilən ünvana yollandıq. Mərkəzin direktoru Namiq Novruzov bizimlə söhbətində bildirdi ki, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yay fəsli ilə əlaqədar hər il tədbirlər planı hazırlanır, bu il də həmin işlər davam etdirilir. Belə ki, plana əsasən iyun ayının 27-30-u arası sağlamlıq imkanları məhdud uşaqlara stolüstü tennis yarışı keçirilib. Ötən ayın 18-də isə mərkəz tərəfindən "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Yay tətili uşaqların gözü ilə" devizi altında festival təşkil olunub. Həmin günü muxtar respublikada fəaliyyət göstərən məktəbdənkənar müəssisələrin hesabatı kimi də qeyd etmək olar. Tədbirdə 2016-2017-ci tədris ilində keçirilmiş müsabiqələrdə uğur qazanan və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşlarından ibarət münsiflər heyəti tərəfindən müəyyənləşdirilən 14 ən yaxşı dərnək üzvü, 7 ən yaxşı dərnək rəhbəri mükafatlandırılıb. Bundan əlavə, yay tətilində hər ay dərnək üzvləri arasında rəsm müsabiqələri, gənclər arasında "Mən nəyi bacarıram?", "Mən necə rəqs edirəm?" devizləri altında müsabiqələr təşkil edilir. Həmçinin ayda bir dəfə uşaqların turizmə marağının artırılması üçün mərkəzin həyətində turist çadırları qurulur, şəhərin gəzməli-görməli yerlərinə ekskursiyalar təşkil edilir, hər həftənin şənbə günləri muzeylərə gedilir, uşaqlar orada tariximizi, mədəniyyətimizi əks etdirən eksponatlarla tanış olur, onlara bu haqda daha geniş məlumatlar verilir. Avqust ayının 25-də isə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və muxtar respublika Təhsil Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud uşaqlar arasında daha bir tədbir – "Tullantı işlərindən ibarət əl işləri" sərgisi keçiriləcək.

**Nail ƏSGƏROV**

## Ağbulaq İstirahət Mərkəzində idmançıların "Yay məktəbi" təşkil olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən idman federasiyaları tərəfindən 11-13 avqust tarixlərində Ağbulaq İstirahət Mərkəzində idmançıların "Yay məktəbi" təşkil edilib.

Federasiyaların 60 idmançısını Ağbulaq İstirahət Mərkəzində təşkilatçı qurumların əməkdaşları qarşılayıblar. İkigünlük istirahət proqrama uyğun olaraq təşkil edilib. Tanışlıqdan sonra idmançılar nahar yeməyinə yollanıblar. Onlar əvvəlcə Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanış olub, "Ağbulaq" bulağına yürüş ediblər. Daha sonra vətənpərvərlik mövzusunda film nümayiş etdirilib. İstirahətin ilk günü şahmat və stolüstü tennis idman növləri üzrə yarışlar da təşkil olunub.

İkinci gün idmançılar mərkəzin stadionunda mini-futbol qarşılaşmasında qüvvələrini sınayıblar. Sonra isə onlar üçün tamaşa göstərilib.

Növbəti günə səhər gimnastikası ilə başlayan idmançılar əyləncəli oyunlarda iştirak edib, vətənpərvərlik mövzusunda mahnılar dinləyiblər. Futbol yarışı da yaddaqalan olub. İdmançılar Şahbuz Dövlət Təbiət Qoruğunu da ziyarət ediblər. Nahar yeməyindən sonra gənclər Naxçıvan şəhərinə qayıdıblar.

## Beynəlxalq Gənclər Günündə muzeylər ziyarət edilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən 12 avqust – Beynəlxalq Gənclər Günü ilə bağlı gənclərin muzeylərə gəzintiləri təşkil olunub.

Gənclər və İdman Nazirliyinin əməkdaşı Tahir Məmmədli deyib ki, gəzintinin təşkil olunmasında məqsəd gənclərin asudə vaxtlarının səmərəli təşkili, tarixi abidələr və muzeylərlə daha yaxından tanış olması, tariximizin unudulmaması və gələcək nəsillərə çatdırılmasıdır. O bildirib ki, 12 avqust tarixinin Beynəlxalq Gənclər Günü kimi qeyd olunması 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəlxalq konfransda qərara alınıb. Həmin gündən etibarən bu gün Azərbaycanda da Beynəlxalq Gənclər Günü kimi qeyd olunur.

Daha sonra ekskursiya iştirakçıları Heydər Əliyev Muzeyini ziyarət ediblər. Burada muzeyin direktoru Ramil Orucəliyev onlara muzey haqqında ətraflı məlumat verib, gənclər muzeydəki eksponatlarla tanış olublar. Həmçinin idmançılar Xalça Muzeyini və Ədəbiyyat Muzeyini də ziyarət edib, orada nümayiş olunan eksponatlara da baxıblar.

Gəzintidə 30 nəfər gənc iştirak edib.

**Ceyhun MƏMMƏDOV**

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

***Muxtar respublikamızda iyul ayında epidemioloji vəziyyət sabit olub, zəhərlənmələr baş verməyib. İnfeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib. Yeni doğulmuş uşaqların 98,6 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd edilib. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qida sənayesi, kommunal, ictimai iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilib. Su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, məişət tullantıları qoyulan meydançalarda 49 min 510 kvadratmetr sahədə dezinfeksiya və 33 min 480 kvadratmetr ərazidə dezinseksiya tədbirləri həyata keçirilib.***

Uşaq və yeniyetmə müəssisələrində, məktəblərdə monitorinqlər, eyni zamanda maarifləndirici tədbirlər təşkil edilib.

Kəskin respirator və digər infeksion xəstəliklərin qarşısının alınması məqsədilə bütün ictimai iaşə, ticarət, su təchizatı, sərhəd-gömrük məntəqələrində profilaktik sağlamlaşdırıcı əks-epidemik tədbirlər həyata keçirilib.

İyul ayı ərzində bakterioloji laboratoriya fəaliyyətini davam etdirib. 32 su, 32 yuyuntu və 988 digər nümunələrin müayinələri aparılıb.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, səhiyyə üzrə 196, təhsil üzrə 445, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 111, kommunal sahələr üzrə 55, sürücülük üzrə 5 nəfər olmaqla, bütövlükdə, 812 nəfər müayinədən keçib.

Sanitariya-kimyəvi laboratoriyalar şöbəsinin Qidalanma gigiyenası laboratoriyasında 7 nümunədə 26 müayinə aparılıb, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun norma daxilində olması, həmçinin dəmir preparatı ilə unun zənginləşdirilməsinə görə 2 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu aşkar edilib.

Kommunal gigiyena laboratoriyasında 12 nümunədə 28 müayinə, Toksikoloji, xarici mühit və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 4 nümunədə 14 müayinə aparılıb.

Əhalinin sanitariya sahəsində maarifləndirilməsi məqsədyönlü şəkildə həyata keçirilib, 60 mühazirə oxunub. Sanitar-epidemioloji vəziyyətin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın müvafiq orqanlar tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılıb, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün xəbərdarlıqlar edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Uca dağların qoynunda məskunlaşan zəhmətkeş insanlarla görüşə tələsirik. Avtomobilimiz Ordubadın mənzərəli kəndlərini bir-bir geridə qoyur. Yolboyu barlı-bəhərli bağlarından, bağçalarından məhsul yığan kənd adamları diqqətimizdən yayınmır.***

## Ordubad yaylaqlarında



Təbiət mənzərələrinə isə söz ola bilməz. Yaşıl donunu geymiş kəndlər, gur sulu çaylar, diş göynədən buz kimi bulaqlar uzun yola körpü salır. Nürgüt kəndini keçib üzü dağlara doğru yol alırıq. Ordubadın uca və əzəmətli dağlarının, buz kimi bulaqlarının əhatəsində yerləşən saf havalı, füsunkar təbiətli Süleyman yurdu, Xan çeşməsi, Əyriçay, Çadırdaş, Tüklü Çəmən yaylaqlarında illərdir, insanlar obalar qurar, burda məskən salarlar.

Yaylaqlarda Ordubad rayonunun Kotam, Babək rayonunun Naxışnərgiz, Kəngərli rayonunun Çalxanqala və Xok, Culfa rayonunun Bənəniyar kəndlərindən 10 oba vardır. 12-13 ailə burada yaşayır. Ümumilikdə, təsərrüfatlarda 20 mindən artıq iribuynuzlu və xırdabuynuzlu heyvan saxlanılır. Bizi qarşılayan fermer Xanlar Həşimov bildirir ki, başlanğıcını 80 baş iribuynuzlu, 300 baş xırdabuynuzlu ilə başlamışdıqsa, hazırda təsərrüfatımızda 500 baş iribuynuzlu, 5000 baş xırdabuynuzlu saxlayırıq. Göstərilən baytarlıq xidmətinin nəticəsidir ki, təsərrüfatlarda saxlanılan mal-qaranın və heyvanların cins tərkibi yaxşılaşdırılır, məhsuldarlığı artırılır. Saxlanılan cins keçilər ildə iki dəfə bala verir. Hər keçidən 3 litr süd əldə edilir.

"30 ildir biz bura gəlirik. Ərazini yüksəkliyinə, sərinliyinə, sulu yer olduğuna, genişliyinə görə seçmişik. Səfalı yerlərdir", – deyir fermer Eylaz Xudanov. Yaylaqda heyvanları bəsləməyin əhəmiyyətindən bəhs edən həmsöhbətimiz bildirir ki, buraların faydalı bitkilərlə, saf sularla zənginliyi heyvanların qidalanmasına müsbət təsir edir. Nəticədə, yüksəkkeyfiyyətli ət və süd məhsulları əldə olunur. Bu da daxili bazarın yerli məhsullarla təminatında önəmli rola malikdir. Digər tərəfdən, kəndli mal-qarasına bu dövr ərzində qış üçün də yem toplamış olur. Elyaz Xudanov onu da deyir ki, burada heyvandarlıqla yanaşı, həm də əkin sahəmiz var. İldə 4-5 ton kartof yığırıq. Hər həftə məhsulumuzu bazara göndəririk. Dolanışığımız yaxşıdır.

Ömürlərini zəhmətə bağlayan insanlar təsərrüfatın digər sahələrindən də qazanc götürürlər. 10 hektardan artıq sahədə kartof əkilib. Bir sözlə, günlərini hədər keçirməyən zəhmət adamları üçün yorğunluq yad anlayışdır. Onlar torpağa tapınırlar. Təbiətlə təmasda olan bu insanlar elə təbiətin bəxş etdiyi bütün sərvətləri dəyərləndirir, faydalarını öyrənir və tətbiq edirlər. Baldırğan, çaşır turşusunun, min bir dərdə dəva çobanyastığı, kəklikotu, böyrəkotu, qantəpər, yarpız dəmləməsinin əvəzi tapılmaz. Xalidə Kərimova 12 ildir qardaşı ilə birgə Əyriçay obasına gəlir. Həm heyvan saxlayır, həm də dağlardan dərdlərin dərmanı olan bitkiləri toplayır. Onların faydalarını sayan həmsöhbətimiz bildirir ki, bizim dərmana ehtiyacımız olmaz. Bu bitkiləri qurudur, qış uzunu işlədirik.

Bəli, çox maraqlıdır yaylaq həyatı. Hər evin özünün təndiri var. Təndirdə çörək bişirilər, yeməklərin də əksəriyyəti burda hazırlanar və çox dadlı olar. Burda 3 ay boyunca köç salanlar isə bu nemətlərin qədrini bilirlər. Təbiətin dilini də öyrənib onlar. Açıq ərazilərdir. Əgər canavar sürüyə hücum edər, ziyanlıq verərsə, oba sakinləri bundan heç də pərişan olmaz. Bir yerə toplaşar, həmin ailəyə dəymiş ziyanı birgə aradan qaldırarlar. Bir də atalar yaxşı deyib: "Qurddan qorxan qoyun saxlamaz". Odur ki, bu yurd yerlərində rahat, asudə yaşayar, təsərrüfatları ilə məşğul olarlar. Xain düşməndən isə onları qoruyan ordumuzun mətin əsgərləri var, arxayındırlar.

Buralar süni bər-bəzəkdən, dekorasiyadan tamamilə uzaqdır. Nə varsa hər şey təbii, hər şey olduqca sadədir. Təmtəraqlı nəyəsə rast gələ bilmərsən. Yaylağın da gözəlliyi elə bundadır. Şəhərin səs-küyündən uzaq, sərin dağ havası, dumduru bulaq suları və təbii məhsullar.

Müşahidələrimizə əsasən deyə bilərik ki, burada qadınların əməyi çox böyükdür. Təmizlik işlərindən tutmuş ta sağım və məhsulların ərsəyə gəlməsinədək. Bu zəhmətkeş insanlarla həmsöhbət olmaq istəsən, gərək saatlarla gözləyəsən. Əl saxlamadan işləyəcəklər ta hava qaralana qədər. Odur ki, harda fürsət düşdü, orda da həmsöhbət olmaq lazımdır. Digər həmsöhbətimiz Nəzakət Haşımova bildirir ki, yaylaq dövrü burada qadınlar şor, lor, kərə, qaymaq və digər ağartı məhsulları istehsal edər, qış azuqələrini hazırlayar, həm də satışa çıxararlar.

Süddən başqa digər ağartı məhsullarını, hətta qatığı belə konservləşdirib qış çıxana qədər istifadə edərlər. Bir sözlə, bir damcı süd belə, burda hədər getməz. Zəhmətlə qənaətcillikdən bir-birindən ləziz, dadlı və ən əsası yüksəkkeyfiyyətli məhsullar ərsəyə gələr. İstehsal olunan süd məhsulları ərazidəki bulaq sularından istifadə edilərək yaradılan, necə deyərlər, təbii soyutma şəraitində saxlanılır. Buz kimi axar su məhsulların daim sərin qalmasını təmin edir. Alıcı sarıdan heç bir problemləri yoxdur. Maşın-maşın bazarlara daşınan ekoloji cəhətdən təmiz, keyfiyyətli məhsullar böyük həvəslə alınır. Naxçıvanın dadlı məhsullarına bələd olan Bakı şəhər sakinləri də onlara müraciət edirlər.

Burada təbiət öz qələmi ilə möcüzə yaradıb. Bir tərəfdə əzəmətli dağlar, axar sular, digər tərəfdə təbiət gözəli Göygöl və palıd ağacları ilə zəngin Tillək meşəsi.

Çadırlardan müvəqqəti yaşayış yeri kimi qurulan və asanlıqla sökülə bilən alaçıqlarla yanaşı, artıq dağların qoynunda daşdan tikilmiş yaşayış binalarına da rast gəlmək olur.

Hava qaralanda zəhmət adamları əllərini işdən çəkərlər. Burda işıqlanmanı alaçıqda lampalar, çöldə isə ay işığı əvəz edər. Dan yeri söküləndən ta qaş qaralana kimi çalışan zəhmətkeş insanları bir də açılan yeni sabah, dağların arxasından boylanan Günəş səfərbər edəcək.

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan Dövlət Televiziyasının baş redaktoru***

## Futbol birinciliyində növbəti mərhələyə yüksələn komandalar müəyyənləşib



*Gənclərin idmana cəlbi istiqamətində görülən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birinciliyinin növbəti oyunları keçirilib.*

Culfa rayonunun Ərəzin kənd stadionunda baş tutan görüşdə Kərki və Camaldın kənd komandaları üz-üzə gəlib. Görüş Kərki kənd futbolçularının 4:2 hesablı qələbəsi ilə yekunlaşıb. Kəngərli rayon mərkəzi stadionunda təşkil edilən görüşdə isə Xok və Şahtaxtı kənd komandaları qarşılaşıb. Azarkeşlərin 13 qola şahidlik etdiyi matçda Xok kənd komandası 7:6 hesabı ilə qələbə qazanıb.

Şahbuz rayon mərkəzi stadionunda Şahbuzkənd və Külüs kənd komandaları qarşılaşıb. Görüşü 5:1 hesablı qələbə ilə başa vuran birincilər növbəti mərhələyə yüksəlib. Ordubad rayonunda isə Vənənd kənd komandası rayonun "Gənclər birliyi" komandasını 3:0 hesabı ilə məğlub ediblər. Babək rayonunda iki görüş keçirilib. Babək qəsəbə stadionunda meydan sahibləri Çeşməbasar kənd komandasını (3:1), Vayxır kənd stadionunda isə meydan sahibləri Sirab kənd komandasını (3:0) məğlubiyyətə uğradaraq növbəti mərhələyə adlayıblar.

Sədərək rayonunda uğur qazanan komanda Sədərək kənd komandası olub. Onlar Qaraağac kənd komandasının qapısından 4 qol keçirməklə buna müvəffəq olublar – 4:1. Həftənin ən maraqlı görüşü isə Şərur rayon Aralıq kənd stadionunda baş tutub. Yerli komanda Çərçiboğan kənd komandasını sınağa çəkib. Görüşün əsas vaxtı 2:2 hesabı ilə başa çatdığından qalibi penalti zərbələri müəyyən edib. Zərbələri daha dəqiq yerinə yetirən Çərçiboğan kənd komandası 6:5 hesabı ilə qələbə qazanıb.

Naxçıvan şəhəri üzrə isə birinciliyin final oyunu keçirilib. Bu görüşdə Bulqan və Qaraçuq kənd komandaları qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən görüşdə 9:6 hesabı ilə Qaraçuq kənd komandası qalib gəlib. Beləliklə, birinciliyin yekununa əsasən I yerə Qaraçuq kənd komandası, II yerə Bulqan kənd komandası, III yerə isə Qaraxanbəyli kənd komandası layiq görülüb.

Qeyd edək ki, bu tur 12 avqust – Beynəlxalq Gənclər Gününə həsr edilib.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Həsənov Şəmsəddin Ələsgər oğlunun adına olan 0300107072 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 648